**2020-ci ilin fevral ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr, ödənilməli vergilər və sığorta haqqları barədə**
**Y A D D A Ş**

**2020-ci ilin yanvar ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- **Əlavə dəyər vergisinin bəyannaməsi,**
- **Aksiz bəyannaməsi,**
- **Yol vergisinin bəyannaməsi,**
- **Mədən vergisinin bəyannaməsi,**
- **Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və**
- **Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi**

2020-ci ilin **fevral ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi** 2020-ci ilin **fevral ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

- **Məcburi dövlət sosial sığortası və işsizlik sığortası üzrə 2020-ci ilin yanvar ayı üzrə hesablanmış sığorta haqları 2020-ci ilin fevral ayının 17-dən** gec olmayaraq tam həcmdə nağdsız formada dövlət büdcəsinə ödənilməlidir. (2020-ci ilin 1-ci rübü üzrə bəyannamə 2020-ci ilin aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

- **Muzdlu işlə əlaqədar** 2020-ci ilin **yanvar ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi** 2020-ci ilin **fevral ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (2020-ci ilin 1-ci rübü üzrə bəyannamə 2020-ci ilin aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

- **Xüsusi notariusların 2020-ci ilin yanvar ayı üzrə hesabladığı gəlir vergisi** 2020-ci ilin **fevral ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2020-ci ilin 1-ci rübü üzrə bəyannamə car ilin aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

**Əmlak vergisinin ödəyiciləri olan müəssisələr tərəfindən**

- **2020-ci ilin 1-ci rübü üzrə hesablanmış əmlak vergisinin** cari ödəmələri **fevral ayının 17-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

***Qeyd:*** 15.02.2020-ci il tarixi qeyri-iş gününə təsadüf etdiyindən həmin tarixədək ödənilməli cari ödəmələrin və sığorta haqlarının ödənilməsinin son müddəti 17.02.2020-ci il tarixə keçirilmişdir.